DOI:10.30546/gdu.2023.172-179

UOT:94(479.24).

# QARABAĞIN XIX ƏSRƏ QƏDƏRKİ İNZİBATİ - ƏRAZI BÖLGÜSÜNÜN TARİXİNDƏN

***Rzayev Nizami İsrail oğlu***
***Gəncə Dövlət Universitetinin dissertantı***

**Xülasə:** *Quruçay və Xocalı-Gədəbəy mədəniyyətlərinin izlərini daşıyan Qarabağ bölgəsi dünya sivilizasiyasının ən qədim mərkəzlərindən biridir. Arxeoloji qazıntılar zamanı Azıx mağarasından tapılan qədim insanın alt çənə sümüyü bu ərazinin dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunun sübutudur. Artıq iki əsrdən çoxdur ki, erməni-hayların Qarabağın mifik "Böyük Ermənistanın" ərazisi olması kimi absurd iddiası, ərazi ətrafında baş verən proseslər, ermənilər tərəfindən məqsədli şəkildə törədilən və səngidilməyən hadisələr Qarabağın tarxinin obyektiv araşdırılmasını vacib və aktual edir. 2020-ci ildən sonra Qarabağın işğaldan azad edilməsindən sonra xarici havadarlarının dəstəyi ilə bölgədə vəziyyəti gərginləşdirən ermənilərin dünya ictimaiyyətini öz uydumaları ilə aldatmalarının qarşısını almaq üçün ən böyük məqsədimiz tarixi həqiqəti üzə çıxarmaqdır. Qarşımızda duran ən vacib vəzifəmiz isə tarixi həqiqətləri dünya ictimaiyyətinə, eləcə də gözü "kor" və qulağı "kar" olmağı seçən havadarlara çatdırmaqdır.*

**Açar sözlər:** Azərbaycan, Qarabağ, Albaniya, Arsax, xanlıq, falsifikasiya, erməni

**Ключевые слова:** Азербайджан, Гарабаг, Албания, Арцах, ханство, фальсификация, армянин.

**Keywords:** Azerbaijan, Karabakh, Albania, Arsakh, khanate, forgery, armenian.

Antik dövrdə e.ə. IV əsrin sonu – e.ə. III əsrin əvvəllərindən Azərbaycanın şimalında Albaniya dövləti meydana gəldi. Dövlətin süqutuna - 705-ci ilədək Qarabağ ərazisi Albaniyanın Uti, Paytakaran və Arsak vilayətlərini əhatə etmişdir. Əvvəlcə paytaxtı Qəbələ olsa da, 551-ci ildən süqutunadək Albaniyanın paytaxti Bərdə olmuşdur. [1, s. 30]

Son antik və ilk orta əsrlərdə Qarabağın bir hissəsi Qarqarlar ölkəsi, digər hissəsi Uti adlanmışdır. Qarqarlar adı Qarqar çayı hövzəsində yaşamış, Albaniyanın ən qədim və ən iri tayfalarından olan qarqar, Uti isə qarqarlara nisbətən daha geniş bir ərazini əhatə edən qədim alban tayfalarından biri olan uti tayfalarının adları ilə bağlıdır. [7, s.5; 21, s. 22, 23; 27, s. 64] VI-VII əsrlərdən etibarən isə Qarqarlar ölkəsi də Uti adlanmağa başladı. Qarabağın dağlıq hissəsi idə III-IV əsrlərdən etibarən Arsax adlanmışdır. Arsax sözünün bu ərazidə yaşayan türkdilli Ağhun tayfalarının adı ilə bağlılığı güman edilir. [8, s. 6]

Romanın Albaniyaya hücumu e.ə. 36-cı ildə Albaniyanın Romadan asılılığa düşməsi ilə nəticələndi. Sasanilərin hücumlarının nəticəsi olaraq 262-ci ildə dövlət Sasani imperiyasının asılılığına düşsə də 272-ci ildə I Şapurun ölümündən sonra yenə öz müstəqilliyini qazandı. Erməni-Roma hücumları nəticəsində müxtəlif illərdə Arsax, Uti, Paytakaran, Sakasena, Girdiman, Kolt və s. əraziləri işğal edilsə də 387-ci ildə Roma və Sasani imperiyaları arasındakı sülh müqaviləsindən sonra Uti, Sakasena, Girdiman, Kolt vilayətləri Albaniyaya qaytarıldı. Qeyd edək ki, Sasanilərlə ittifaqında Albaniyanın əsas məqsədi erməni-roma işğallarından qorunmaq idi. [1, s. 39]

Məhz bu baxımdandır ki, hadisələri öz mənafeələrinə uyğun saxtalaşdırmada professional olan ermənilər 387-ci ilədək Kürdən cənubdakı Azərbaycan torpaqlarının Böyük Ermənistana aid olduğunu iddia edirlər. Öz konsepsiyası ilə erməni tarixşünaslığının saxta təməlini qoyan, eləcə də müasir əsasını təşkil edən V əsr erməni tarixçisi Favstos Buzandın "Ermənistan tarixi" əsərinə görə, Kür və Araz çayları arasındakı ərazi, o cümlədən Qarabağ Ermənistanın tərkib hissəsi olmuşdur. [15, s. 38-40]

DOI:10.30546/gdu.2023.172-179

Erməni tarixçilərinə görə, Albaniyanın Kaspiana, Uti, Sakasena və Girdman əyalətləri e.ə. II əsrdən eramızın IV əsrinə qədər Böyük Ermənistanın tərkibində olmuşdur, Kürdən cənubdakı Azərbaycan torpaqları “Kürsahili Ermənistan” və ya “Daxili Ermənistan” adlanmış, Girdman və Arsax Ermənistanın şimal-şərq əyalətləri olmuşdur. Kaspiana, Uti, Sakasena və Girdman əyalətlərindən ibarət olan bu ərazini erməni hökmdarlarının təyin etdikləri canişinlər idarə etmiş, əhali IV əsrədək erməniləşmiş, və artıq V əsrdən onlar ermənicə yazırdı. [25, s.303-305; 28, s. 16; 33, s. 40]

Lakin 510-cu ildə Sasani imperiyası Albaniyanı işğalı etdi və işğal müddətində ərazi Mərzbanlar (510-629) və Mehranilər (629-705) sülaləri tərəfindən idarə olunmuşdu. [1, s. 31]

Araşdırmalardan da məlumdur ki, Qarabağ sözünə ilk dəfə Fəzlullah Rəşidədinin (1247-1318) “Cami-ət təvarix” əsərində rast gəlinir. [22, s. 45] Qarabağ adına “Kitabi-Dədə Qorqud”un IV boyunda da rast gəlinir [3, s. 179].

Ərazinin müxtəlif zamanlarda “Qarqar”, “Arsax”, “Qarabağ” və digər adlarla adlandırılmasının etimoloji mənasına gəldikdə bəzi müəlliflər bunu ərazidə yaşayan arsak, gerger, qarqar, gərgər, kara, karalar, uti, utik v.s kimi qədim türk tayfalarının adları ilə bağlasalar da, bir qisim müəlliflər isə ərazinin coğrafi quruluşuna uyğun olaraq onu “qara bağ” - “böyük, sıx, əzəmətli, səfalı bağ” [21, s. 22; 27, s. 78] kimi təqdim etmişlər.

Ə.S.Sumbatzadə və Ə.Ə.Rəhmani də öz tədqiqatlarında “Qarabağ” terminini “xalq və bağ”, “böyük bağ”, “səfalı bağ” və sairə mənası kəsb etdiyini qeyd etmişlər. Bu ərazi Albaniyanın tarixi ərazisi olub, əsasən Arsak, Sünik, Uti, Sakasena və Paytakaran vilayətlərini əhatə edirdi və bu adla da tanınırdı [31, s. 124; 32, s. 145-146].

Y.Mahmudov və K.Şükürov apardıqları tədqiqatlarda Qarabağ ərazisində adı çəkilən “Arsak” sözünün mənasını türk dilində Ərsak “igid”, “sak kişisi” kimi olduğu qənaətinə gəlmişlər [14, s. 3].

Bəzi tədqiqat əsərlərində isə Qarabağ sözünün mənasının Qarabağ bölgəsində yaşayan tayfaların adı ilə bağlı olduğu fikri irəli sürülür. B.Ə.Budaqov və Q.Ə.Qeybullayev birlikdə yazdıqları əsərdə Qarabağ sözünün etimologiyasını eradan əvvəl Qafqazda ya¬şayan kəngərlər və peçeneqlərin Qarabağ tayfasının adı ilə bağlayır [3, s. 179].

Lakin erməni tarixçilər “Qarabağ” toponiminin Ön Asiyadan hayasların təzyiqi ilə eramızdan çox əvvəl Araz boyu hərəkət etmiş pakay adlı xalqın adı ilə əlaqələndirərək, ərazidə olan toponimlərin də erməni dilində olduğunu iddia edirlər. [26, s. 46, 66-67] Onlar Qarabağ ərazisinin e.ə. II əsrdə Erməni çarı I Arçaşes (189—160-cı illər) tərəfindən işğal edilərək Ermənistana qatıldığını və Kür çayının Albaniya ilə Ermənistanın sərhəd təşkil etdiyini qeyd etmişdilər. Erməni tarixçiləri bu iddialarının mənbəyi kimi göstərdikləri Strabonun “Coğrafiya” əsərinin tədqiqi zamanı XIX əsrdə əsərin saxtalaşdırıldığı, orada Albaniyanın heç bir vilayətinin adının olmadığı məlum olmuşdur. [8, s. 21] Bir faktı qeyd etmək yerinə düşər ki, Qarabağın qədim erməni torpağı olduğunu iddia edən erməni tarixçiləri, sələflərinin bütün saxtakarlıqlarından sonra da belə ərazini işğal edərək bura gəldiklərini qeyd edirlər.

Digər bir fakt isə Qarabağın adı ilə bağlıdır: belə ki, Anili Samuel ilk dəfə XII əsrdə Qarabağ sözünü erməni dilinə tərcümə edərək “Qara bağ” mənasını daşıyan “Sev aygi” ifadəsini işlətmişdir. [8, s. 6] Buradan belə bir fikir yaranır ki, əgər Qarabağ ərazisi ermənilərin vətəni olubsa, bu sözün erməni dilində bir mənası olmalı idi, tərcüməyə ehtiyac olmamalı idi.

Erkən orta əsrlər dövründə Uti və Arsax vilayətlərini əhatə edən Qarabağ VII əsrdə ərəb işğalına məruz qalaraq Xilafətin şimaldakı mühüm mərkəzlərindən birinə çevrildi. [24, s. 31]. Ərəblər özlərinə siyasi dayaq yaratmaq üçün erməniləri əraziyə köçürdü. Erməni katolikosu İlyanın satqınlığına mükafat olaraq xəlifənin əmri ilə 704-cü ildə Alban kilsəsini erməni-

DOI:10.30546/gdu.2023.172-179

qriqorian kilsəsinə birləşdirildi. [11, s. 177] Alban kilsəsinə təyin edilmiş ermənipərəst Alban katolikosu Simeon Nerses Bakurun kitabxanasındakı tarixi əks etdirən bütün məlumatları Tərtər çayına atdıraraq Albaniya tarixinə aid mənbələri məhv edirdi. [11, s. 177]

Qarabağın dağlıq hissəsində X—XI əsrdən Xaçın feodal hökmdarlığı yaranmış və XIII əsrdə özünün çiçəklənmə dövrünə qədəm qoymuşdur. Ancaq Lakin Qarabağın düzən hissəsinin əhalisi islamı, dağlıq hissənin əhalisinin böyük qismi isə qriqorianlaşmağa məcbur oldu. Beləliklə, Qarabağın düzən hissəsində ərəb dilli epiqrafik abidələr, dağlıq hissədə erməni-qriqorian dilli epiqrafik abidələr yayılmağa başladı. [8, s. 47] Bununla da, təqribən IX-X əsrlərdə ermənidilli toponimlər, XI-XII əsrlərdə isə Alban xristian abidələrində ermənidilli kitabələr də meydana gəlməyə başladı. XII əsrə aid Xotavəng (Xudavəng) məbədində 1182-ci ilə aid olan ermənidilli epiqrafik yazıda Xaçın knyazı Həsən Cəlal Vaxtanq özünün Qarabağda Aterk, Handaberd, Xaçenaberd və Xavkaqa mahallarının hökmdarı olduğunu bildirmişdir. [7, s. 65-72] Bu toponimlərin ermənidilli olması ərazinin onlıara məxsus olduğu demək deyil. Erməni olduğunu qeyd etdikləri Həsən Cəlalın isə ailə üzvlərinin adlarından da göründüyü kimi erməni deyil alban olduğu aydın olur. Bundan sonra, Qarabağdakı toponimlərin bir qismi erməniləşdirilməyə məruz qalmışdır. Onlardan Aqbad Haqbat, Mehrəvan Moxravan, Qoturdağ Katurçat, Biçənə Bçans, Köçəbə Qoçbek, Dizak Dozaq, Suqovuşan isə Qetameç kimi erməni toponimləri ilə dəyişdirilmişdir. [12, s. 144] Təbii ki, toponimlərin erməniləşdirilməsi sadaladıqlarımızla məhdudlaşmır.

Xilafətin süqutundan sonra Qarabağ Sacilər, Salarilər, [13, s. 17] Şəddadilər, Səlcuq İmperiyasının, Atabəy İldənizlər, Monqollar, Hülakülər (Elxanilər), Cəlarilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövlətlərinin tərkibində olmuşdur. Səfəvilər dövlətinin tərkibində mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi yaranmışdır. XVII əsrdən Qarabağ bəylərbəyiliyinin tərkibinə Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşədil daxil edilmişdi ki, bu bölgü XVIII əsrin əvvəlinədək davam etdi. [4, s. 33, 86; 13, s. 17]

Tarixçi Vaqif Piriyevin yazdığına əsasən, "Qarabağın ərazisi Araz çayından başlayaraq şimali-qərb istiqamətinə uzanmış və Beyləqandan tutmuş Zəqəmçaya kimi olan əraziləri əhatə etmişdir. Onun şərq sərhədləri Kür ilə Arazın birləşdiyi yerdən nisbətən qərbdə idi, qərb hüdudları isə Həkəri çayına çatırdı. Tərkibində Şəmkür, Gəncə, Bərdə, Ağdam, Beyləqan kimi iri şəhərlər, Zəqəm, Xanagah-Şutur, Qarxun, Dih-İsfahan, Lasub, Cuzbuq, Xeyrək, Kanqlıkənd, Bazarcıq, Ləmbəran, Yunan, Xaçındarbatlı, Qandzasar, Bəkrəbad, Xar, Sərçabil, Dolanlar, Şuşa və s. yaşayış məskənləri, Çərek, Əkna, Crabert, Matris, İzz, Xaçın, Zaris, Xayzan və s. qalalar var idi. Qarabağın dağlıq hissəsində Xaçın malikanəsi mövcud olmuş və bütün orta əsrlər boyu öz siyasi mövqeyini qoruyub saxlaya bilmişdir. Qarabağdan ölkənin mühüm ticarət yollarının bir qolu keçirdi və təxminən 300 km olan (45 fərsəng) həmin yol 10-dan artıq iri yaşayış məskənini birləşdirirdi." [22, s. 45]

Qeyd edək ki, Qarabağa dair sənədlərin məqsədli məhv edilməsi ilə əlaqədar XIX əsrə qədərki həm inzibati ərazi bölgüsü, həm də say dinamikası haqqında dəqiq məlumat yoxdur. Digər məsələlərlə yanaşı, Qarabağ bəylərbəyiliyinin yaranma tarixi haqqında da müxtəlif variantlar mövcuddur. Bəzi tarixi ədəbiyyatlara görə, Qarabağ bəylərbəyiliyi I Şah Təhmasibin hakimiyyəti (1524-1576) dövründə [30, s. 59], bəzi tarixi ədəbiyyatlarda isə I Şah İsmayılın hakimiyyətinin (1501-1524) ilk illərində yarandığı göstərilir. 1725-ci ildə yazıya alınmış Mirzə Səmianın "Təzkirətül-müluk" əsərində Azərbaycan ərazisindəki dörd bəylərbəyilikdən (Təbriz, Qarabağ, Çuxursəd, Şirvan) biri olan Qarabağ bəylərbəyiliyinin coğrafiyası, inzibati ərazi bölgüsü və iqtisadi vəziyyəti haqqında verilən məlumatlardan [20, s. 284-294] belə qənaətə gəlmək olur ki, sözügedən bəylərbəyilik I Şah Təhmasibin deyil, I Şah İsmayılın hakimiyyəti illərində yaranmışdır. Həmçinin bu əsərdə bəylərbəyiliyin Zəyəm, Bərdə, Ağstafa, Cavanşir, Bərgüşad, Qaraağac (Kaxeti vilayəti ərazisində yerləşirdi), Lori və

DOI:10.30546/gdu.2023.172-179

Pəmbək, Araz-bar, Bəyazidli, Simavi və Tərkür adlı 9 nahiyədən ibarət olduğu da qeyd olunmuşdur. [19, s. 167] Lakin bu əsərdə də ermənilərin iddia etdiyinin əksinə olaraq həmin dövrdə hansısa məlikliyin olması haqqında heç bir məlumat qeyd olunmamışdır.

Qarabağ h. 1086 (m. 1675/76)-cı ildə qələmə alınmış "Tarix-i aləmara-yi Şah İsmayıl" ("Şah İsmayılın dünyanı bəzəyən tarixi") adlı əsərində Şah İsmayıl "Qarabağın və o sərhədin bəylərbəyiliyini Qara Pirinin oğlu Rüstəm bəyə inayət etmişdi" [19, s. 165-166]. Türk tarixçisi Faruk Sümer də Qarabağın bəylərbəyiliyinin Qara Piri bəy Qacarın oğlu Rüstəm bəy Qacarın idarə etdiyini qeyd etmişdir.

1590-cı il Səfəvi-Osmanlı arasındakı müqavilədən sonra Osmanlı dövlətinin tərkibinə qatılan Qarabağın ərazisi Səfəvilər dövründəki kimi dəyişməz olaraq qaldı. Belə ki, Osmanlı dövlətinin tərkibində də Gəncə - Qarabağ əyalətinin sərhədi Tiflisə qədər uzanırdı. [5, s. 7] Lakin Osmanlı dövləti digər işğal etdikləri ərazilərdə olduğu kimi Gəncə - Qarabağ əyalətində də öz inzibati idarə sistemlərini tətbiq edərək ərazini sancaq və nahiyələrə böldü. 1593-cü ildə tərtib edilən icmal və müfəssəl dəftərlərdəki məlumata görə, Gəncə-Qarabağ əyaləti Gəncə, Bərdə, Xaçın, Axıstabad, Dizaq, Həkəri Vərəndə adlanan 7 sancaqdan ibarət olmuşdur ki, bunlardan Gəncə və Axıstabad istisna olmaqla digər 5-i Qarabağ ərazisini əhatə etmişdi. Bu sancaqlar özləri də nahiyələrə bölünmüşdü ki, onların da sayı 36 olmuşdur.

–Gəncə sancağı - Gəncə, Gəncə Aranı, Dağlıq Gəncə, Şəmkir Aranı, Dağlıq Sunqur, Kürəkbasan Aranı , Şütur, Danqı, Zəyəm Aranı, Yevlaq, Tavus, Dəmirçihəsən adlı 12 nahiyədən;

–Bərdə sancağı - Bərdə, Sir, Pətəklikvə İncərud adlı 4 nahiyədən;

–Xaçın sancağı - Xaçın, Qaraağac, Ağcabədi, Dağlıq Çalaberd, Çalaberd, Qarqar və Məğaviz adlı 7 nahiyədən;

Axıstabad sancağı - Axıstabad (Böyükçay da adlanırdı), Quzey, Güney, Dağlıq İncə, İncə adlı 5 nahiyədən;

–Dizaq sancağı - Arasbar, Dağlıq Dizaq, Dizaq adlı 3 nahiyədən;

–Həkəri sancağı - Keştasf, Hənəri, Zarus, Alpaut adlı 4 nahiyədən;

–Vərəndə sancağı - Vərəndə adlı 1 nahiyədən ibarətdir. [5, s. 7-8]

Elmi ədəbiyyatlarda Osmanlı dövründə Qarabağ ərazisinin 36 nahiyə, 5 sancaqdan ibarət olduğu göstərilsə də İcmal dəftərindən aydın olur ki, Əyalətin Qarabağ hissəsində 19 nahiyəni birləşdirən 5 sancaq mövcud olmuşdur.

XVIII əsrin I yarısında (xanlığın yaranması ərəfəsində) onun inzibati ərazi bölgüsü haqqında tarixi qaynaqlarda məlumat qalmadığından Qarabağ xanlığında inzibati-ərazi vahidləri haqqında dəqiq məlumat əldə etmək, dövrlər üzrə tarixi ardıcıllıqla onları müqayisə etmək qeyri-mümkündür. Həmin dövrdə Qarabağın inzibati bölgüsünü Osmanlı dövlətinin tərtib etdiyi kameral təsvirdən əldə etmək mümkün olmuşdur. Osmanlı dövlətinin 1723-1725-ci illərdə Azərbaycan ərazisini (Xəzərsahili vilayətlər istisna olmaqla) işğal etdikdən sonra dövlətin daxili siyasətini, idarəetmə və vergi sistemini tənzimləmək üçün işğal etdiyi ərazilərin də, o cümlədən Qarabağın inzibati ərazi bölgüsünü dəqiqləşdirmişdilər. O cümlədən, hər bir inzabati ərazi vahidində ailələrin sayı və hər bir ailənin üzvlərinin adları, hətta onların yaşlarının dəqiq qeydiyyatını aparılaraq kameral təsvirini tərtib edilmişdi. İstanbul şəhərinin Başbakanlıq arxivində saxlanılan bu sənədlər "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adı altında nəşr etdirilmişdir. Bu nəşrində yer alan sənədlərin əldə edilməsində danılmaz rolu olan Ziya Bünyadovun sayəsində Qarabağ xanlığının 1727-ci ildə inzibati-ərazi quruluşu, ərazi vahidləri, əhalisinin say dinamikası və etnik, dini tərkibi haqqında məlumat vermək mümkündür. "Müfəssəl dəftər"dən məlum olur ki, XVIII əsrin I yarısında Qarabağda Şütürbasan nahiyəsi, Bərdə nahiyəsi, İncərud nahiyəsi, Sir, Bayad, Xaçın, Çələbiyurd (Çelaberd), Keştək, Vərəndə, Dizaq, Köçəz, Zarıs, Keştasf, Həkəri,

DOI:10.30546/gdu.2023.172-179

Bərgüşad, Çuləndər, Talış, Gülüstan, Yevlaq Qaramanlı nahiyələri, Arasbar qəzası, Cavanşir, Otuziki, Kəbirli, Ətyeməzli elatları, Kəngərli camaatı, Püsyan və Qaraçorlu kürdləri mövcud olmuşdur. [6, s. 28-530]

Nadir şahın hakimiyyəti illərində (1736-1747) yuxarıda qeyd olunan Qarabağ (Gəncə) bəylərbəyiliyinə tabe olan mahalların bəziləri ləğv edilmiş, qalanları isə bəylərbəyilik daxil, birbaşa Təbrizə, Azərbaycan bəylərbəyiliyinə tabe etdilmişdi. [23, 650].

Səfəvilərin və Əfşarların süqutundan sonra 1747-ci ildə Qarabağ bəylərbəyliyinin ərazisində müstəqil Qarabağ və Gəncə xanlıqları yarandı. [8, s. 5; 9, s. 9]

Xanlıq dövründə Qarabağın inzibati ərazi bölgüsü haqqında da məlumatlarda müxtəliflik nəzərə çarpır. Bəzi məlumatlarda Qarabağın 17, bəzi məlumatlara görə isə 21 mahala bölündüyünə rast gəlinir. Qarabağın etnik tarixindən bəhs edən Xəlyəddin Xəlilov Sisiyan, Dəmirçi-Həsənli, Küpara, Bərgüşad, Bahaburd, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbörd, Xırda-para Dizax, Otuziki, İyirmidörd, Qaraçorlu, Vərəndə, Dizax və Acanat-türk kimi 17 mahalın [10, s. 41] adını sadalasa da, Süleyman Əliyarlı tərtib etdiyi dərsliyində xanlıq ərazisində 21 mahal olduğunu vurğulamış, onlardan 5-nin - Çalbayır, Kəbirli, Cavanşir, Zəngəzur, Mehri, Qafan və b. kimi qeyd etməklə kifayətlənmişdir. [2, s. 564] Tofiq Mustafazadə də Süleyman Əliyarlının fikrini dəstəkləyərək Qarabağ xanlığının inzibati cəhətdən 21 mahala, 5 xristian məlikliyinə bölündüyünü qeyd edərək xanlıq dövründə Qarabağda 1 şəhər, 638 kənd mövcud idi, əhalisinin sayı isə 90 minə çatdığını qeyd etmişdir. Pənahəli xan (1748-1763) və İbrahimxəlil xanın (1763-1806) hakimiyyəti dövründə xanlıq hərbi cəhətdən möhkəmləndirilmişdi. [21, s. 31]

O dövrün tarixi hadisələrini əks etdirən mənbələri araşdırarkən məlum olur ki, bu müxtəlifliyin səbəbi baş vermiş xanlıqdaxili və xanlıqlararası çəkişmələr və müharibələr olmuşdur. Çəkişmlər və müharibələr zamanı mahalların istila edilməsi və ya itirilməsi ilə əlaqədar müxtəlif dövrlərdə Qarabağ xanlığının inzibati ərazi quruluşunda dəyişikliklər olmuşdur ki, bu da mahalların sayında öz əksini tapmışdır.

1736-cı il Muğan qurultayından sonra Nadir şahın seçilməsinə narazı olan Qarabağ bəylərbəyinə qarşı gördüyü cəza tədbirlərindən biri də Qarabağın beş xristian məlikliyinə daxili idarəetmədə müstəqillik verərək Qarabağ bəylərbəyinin tabeçiliyindən çıxarıb birbaşa Azərbaycan vilayəti hakiminə tabe etməsi olmuşdur. Lakin Qarabağ xanlığının təsisindən sonra getdikcə güclənən Qarabağ xanı Pənahəli xandan qorxuya düşən məliklər hiyləyə əl ataraq Şəki və Şirvan xanlarının Pənahəli xana qarşı çıxmasına nail oldular. Qarabağ xanı qalib gəldikdən sonra məlikliklər xanlığa tabe edildi. [21, s. 28] Siyasi vəziyyəti şərh edən Mirzə Adıgözəl bəy yazmışdır ki, "Meqri, Güney mahallarını Bərgüşada qədər Qaradağ hakiminin əlindən alıb özünə tabe etdi. Tatev və Sisyan mahallarını Naxçıvan hakimindən, Zəngəzur və Qapan mahallarını Təbriz bəylərbəyisindən aldı. Kolanıların məskəni olub, Uşacıq kəndindən Göyçə sərhəddinə qədər uzanan Tərtər çayı sahilinədək yerləri İrəvan hakimindən aldı. Gəncə hakimlərinə aid və Xudafərin körpüsündən Kürək çayına qədər olan yerləri də öz əlinə keçirdi. Naxçıvan elindən olub bir minbaşıya tabe Kəngərli eli, Borçalıdakı Dəmirçihəsənlilərindən olub bir minbaşıya tabe Dəmirçihəsənli eli, yenə Borçalıdan Cinni tayfası da Qarabağa gəlib Pənahəli xanın himayəsinə sığmmışdılar". [17, s. 42; 18, s. 232] Qeyd edilən siyasi hadisələri təsdiq edən Mir Mehdi Xəzani Mehri və Güney mahalları ilə yanaşı Çuldur mahalının da Qaradağ hakimindən alındığını qeyd emişdir. [16, s. 135]

İbrahimxəlil xan və Mehdiqulu xanın hakimiyyəti dövrlərində Qarabağ xanlığının bir hissəsi - Qafan, Mehri və Araz çayları arasındakı torpaqlar İranın tərkibinə qatılmışdır. Türkmənçay müqaviləsindən sonra bu ərazi yenidən Rusiya tərəfindən işğal edilmiş Qarabağ xanlığının ərazisinə daxil edildi. [29, s. 307]

DOI:10.30546/gdu.2023.172-179

O dövrün salnamələrində Qarabağın ərazisi cənubdan Xudafərin körpüsündən Sınıq körpüyə qədər Araz çayı, şərqdən Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülən Kür çayı, şimaldan Qarabağın Yelizavetpolla (indiki Gəncə) sərhədi Kür çayına qədər Goran çayı (salnamədə Kür çayı çox yerdən keçib Araz çayına çatdığı göstərilir), qərbdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağları olduğu qeyd edilir. [17, 115]

**Nəticə.** Qədim dövrdən XVIII əsrin sonunadək uzun və keşməkeşli tarixi yol keçmiş Qarabağ ərazisi saysız siyasi hadisələrin şahidi, eləcə də bilavasitə iştirakçısı olmuş, həm ad, həm də ərazi baxımından dəyişikliklərə məruz qalmışdır. Lakin buna baxmayaraq o, öz ərazi bütövlüyünü, demək olar ki, qoruyub saxlaya bilmişdir. Gözəl və zəngin təbiəti, strateji mövqeyi və mədəniyyətinə görə Qarabağ ərazisi Azərbaycan ərazisində yaranan və ərazini işğal edən dövlət və imperiyaların mərkəzi və ya əsas diqqət obyekti olmuşdur.

XIX əsrin əvvəllərində çar Rusiyasının Azərbaycanın digər əraziləri kimi Qarabağ ərazisini işğal edildi. Bununla da, Qarabağın siyasi müstəqilliyinə son qoyuldu və ərazi Ümumrusiya inzibati bölgü sisteminə uyğunlaşdırıldı. Qarabağ və Gəncə xanlıqlarının ərazisində Yelizavetpol quberniyası yaradıldı ki, Qarabağ (eləcə də Gəncə) yeni bölgüyə əsasən qəzalara bölündü. Nəticədə, ermənilər istəklərinə qismən nail ola bildilər: Qarabağ ərazisində “erməni vilayəti” yaradıldı.

***Ədəbiyyat***

1. Ağasiyev İ.K. Azərbaycan tarixi: sxemlərdə, xəritələrdə, cədvəllərdə. - Bakı: Biznes Universiteti, - 2015. – 288 s., s.31-32.
2. Azərbaycan tarixi. (Uzaq keçmişdən 1870-ci illərə qədər). / red.: S.S.Əliyarlı. - Bakı: Azərbaycan, - 1996, - 872 s.
3. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. - Bakı: Nafta-Press, - 1998, - 452 s.
4. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. - Bakı: Şərq-Qərb, - 2007, - 407 s.
5. Gəncə-Qarabağ əyalətinin icmal dəftəri / AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu. Ön sözün müəl. Y. M. Mahmudov , tərt. T. H. Nəcəfli. - Bakı: Çaşıoğlu, - 2010, - 508 s.
6. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. / Ön söz, qeyd və şərhlər: Hüsaməddin Məmmədov. - Bakı: Şuşa nəşriyyatı, - 2000, - 576 s.
7. Göyüşov R.B. Xotavəng məbədi və onun yazıları. // Azərbaycan SSR EA xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1972, № 3, s. 65-72.
8. Göyüşov R.B. Qarabağın keçmişinə səyahət. - Bakı: Azərnəşr, - 1993, - 83 s.
9. Hacıyev Q.Ə. Qarabağ tarixi. - Bakı: Təknur nəşriyyatı, - 2014, - 228 s.
10. Xəlilov X.D. Qarabağın etnik tarixindən. // Azərb. SSR EA xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1988, № 3, s. 41-44.
11. Kalankaytuklu M. Albaniya tarixi. - Bakı: Elm, - 1993, - 272 s.
12. Qeybullayev Q. Qarabağ (etnik və siyasi tarixinə dair). - Bakı: Elm, - 1990, 248 s.
13. Mahmudov Y.M., Mustafayev C.M. Şuşa - Pənahabad. - Bakı: “Təhsil”, - 2012, - 152 s.
14. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Suallar və faktlar. -Bakı: Qismət, - 2005, 156s.
15. Məmmədova F. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr-er. VIII əsri). - Bakı: Azərnəşr, - 1993, - 262 s.
16. Mir Mehdi Xəzani. Kitabi-tarixi-Qarabağ // Qarabağnamələr. II kitab. – Bakı: Şərq-Qərb, - 2006. - 288 s., s. 109-236.
17. Mirzə Adıgözəl bəy. Qarabağnamə // I kitab. Bakı: Şərq-Qərb, - 2006. - 216 s., s. 7-116.
18. Mirzə Yusif Qarabaği “Tarixi-Safi // Qarabağnamələr. II kitab. – Bakı: Şərq-Qərb, - 2006. – 288 s., s. 9-108.

DOI:10.30546/gdu.2023.172-179

19. Musalı N. Səfəvilər zamanında Qarabağ bəylərbəyiliyinin yaradılması və onun inzibati quruluşu / Qarabağ dünən, bu gün və sabah (V Respublika elmi-əməli konfransının materialları). - Bakı: Qarabağ Azadlıq Təşkilatı, - 2006, s. 165-169.
20. Musalı N. Şah İsmayıl Xətai və Qarabağ bəyləri / "Qarabağ folkloru: problemlər, perspektivlər" mövzusunda II Respublika Elmi Konfransının materialları. - Bakı: Nurlan, - 2013, s. 284-294.
21. Mustafazadə T. Qarabağ xanlığı. - Bakı: Sabah, - 2010, 333 s.
22. Piriyev V.Z. Azərbaycanın tarixi siyasi coğrafiyası. - Bakı: Azərnəşr, - 2002, 152 s.
23. Süleymanov M. Nadir şah. - Tehran, - 2010.
24. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərb.Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 157 s.
25. Еремян С.Т. Экономика и соцальный строй Албании III-VII вв // Очерки по истории СССР III-IX вв. - М.: Изд-во АН СССР, - 1985, - 473 с.
26.Капанцян Г.А. Историко-лингивистические работы. К начальной истории албан. Древняя Малая Азия. - Ереван: Изд-во АН Арм. ССР, 1956, 471 с.
27.Мамедов Т.М. Албания и Атропатена по древнеармянским источникам (IV-VII вв.). - Баку: Элм, - 1977, - 147 с.
28.Мамедов Т.М. Кавказская Албания в IV-VII вв. - Баку: Маариф, - 1993, - 216 с.
29.Мнацаканян А.Ш. О литературе Кавказскоу Албании.Ереван:Из. АН Арм.ССР, -1969, -220 с.
30.Павлов И.К. Хроника времен Сефевидов (сочинения Мухаммед-Масума "Исфахани-ас-сийас". - М.: Наука, - 1993.
31.Рахмани А.А. Азербайджан: границы и админстративное деление в конце XVI-XVII вв. - Баку: Элм, - 1987.
32.Сумбатзаде А.С. Азербайджанцы-этногенез и формирование народа. Баку:Элм,- 1990,- 304 с.
33.Тер-Гевондян А.Н. Армения и Арабский халифат. Ереван: Изд. АН Арм. ССР, - 1977, - 322 с.

## ИЗ ИСТОРИИ АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОГО ДЕЛЕНИЯ КАРАБАХА ДО XIX ВЕКА

***Рзаев Низами Исраэль оглу***

***Резюме***

Фальшивые утверждение армян, о том, что будто-бы территория Гарабага является «землей древней Армении», требует объективно исследовать историю региона. В настоящей статье освещается этимология терминов «Арцах» и «Гарабаг», а также доказывается, что древние племена, проживавщих в этом регионе, являются тюрками. Также здесь рассмотрен исторический путь территории Гарабага и доказоно, что историческая Албания включала провинции Арцак, Сюник, Ути, Сакасена, Пайтакаран и др. Хотя и в разное время Гарабаг входил в состав разных государств, он, благодаря высокой культуре здешнего населения играл важную роль в жизни этих государств.

Хотя территория Гарабага входила в состав различных государств и империй, возникших на территории Азербайджана и оккупировавших эту территорию, ему практически удалось сохранить свою территориальную целостность. Даже Гарабаг был центром или главным объектом внимания этих государств и империй из-за своей красивой и богатой природы, стратегического положения и культуры.

DOI:10.30546/gdu.2023.172-179

## FROM THE HISTORY OF THE ADMINISTRATIVE-TERRITORIAL DIVISION OF KARABAKH UNTIL THE 19TH CENTURY

***Rzayev Nizami Israel oglu***

***Summary***

The fake adventures of Armenians who claim that the territory of Karabakh is the "land of ancient Armenia" make it necessary to objectively investigate the history of the region. In the article, the etymology of the terms "Arsakh" and "Karabagh" is classified, and it is proved by evidence that the ancient tribes living in the area are Turks. Also, the historical path of the Karabakh territory has been looked at, and it has been confirmed that historically Albania includes Arsak, Sünik, Uti, Sakasena and Paytakaran provinces. Although it was part of different states at different times, it had an important role in that state as a result of the high culture of the people here.

Although the territory of Karabakh was part of various states and empires that arose on the territory of Azerbaijan and occupied the territory, it almost managed to preserve its territorial integrity. Even Karabakh was the center or main object of attention of those states and empires due to its beautiful and rich nature, strategic position and culture.

***Rəyçi: t.e.d.Hacıyev Qasım Əhəd oğlu***
***Azərbaycan tarixi kafedrasının 26 may 2023-cü il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olduğu tarix 26 may 2023***